BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№1 Humanitar elmlər seriyası 2010

# KÖLGƏLƏRİN İZİ İLƏ – AZƏRBAYCAN CÜMHURİYYƏTİ

**S.M.MƏMMƏDLİ**
***Bakı Dövlət Universiteti***
***Samira_Mammadli@mail.ru***

*Məqalə bir sıra tarixi romanların müəllifi, çağdaş yazıçı Əlisa Nicatın «Mələklər və İblislər» romanına həsr olunmuşdur. Əsər 1918-1920-ci illərin ümumi ictimai-siyasi mənzərəsini əks etdirir. Xüsusilə, uzun illər təhrif olunmuş məlum tarixi hadisələrin burada olduğu kimi təsviri maraq doğuraraq mövcud dövrə yeni bir baxışın özünəməxsusluğunu ortaya qoymuşdur.*

Yazıçı Cümhuriyyət həyatındakı mənfi və müsbət meylli iki qütbü «Mələklər və İblislər » olaraq dəyərləndirmişdir. Məqalədə müəllif buradan çıxış edərək ağ və qara kölgələrin izi ilə yazıçının obrazlar sistemini səciyyələndirməyə çalışır.

Eləcə də, Əlisa Nicatın əsərdə həmin dövrün ədəbi – bədii şəxsiyyətlərinə yer ayıraraq onların xüsusi parlaq obrazlarını yaratması müəllifin nəzər nöqtəsinə çevrilmişdir.

XX əsrdə xalqımızın həyatında baş vermiş dönüş mərhələlərinin, Azərbaycan Xalq Cümhuriyyəti dövrünün, 20-30-cu illərin bir çox həqiqətləri məhz 90-cı illər yazıçısının gözü ilə canlandırıldı. Bu, hər cür stereotipdən uzaq azad bir vətəndaşın öz milli keçmişinə səyahəti idi. Bu səfər nə qədər əzablı olsa da, həqiqətlər qapısını xalqımızın üzünə açdığı üçün şərəfli idi. Mündəricə etibarilə zəngin arxiv materialları və tarixi sənədlərə istinadən yazılan əsər bədii inandırıcılıq hissi aşılayır. Xüsusilə dövrün ruhu, səciyyəsi, psixologiyası orijinal obrazlar, maraqlı hadisə və mətləblər vasitəsilə ifadə edilərkən həqiqətə sadiqlik başlıca meyara çevrilir.

Bu prinsipə sadiq qalan və Azərbaycan Cümhuriyyətinə yeni baxış və münasibətin zərurətini dərindən anlayaraq həmin dövrün dolğun panoramını əks etdirən ədiblərdən biri də yazıçı- filosof Əlisa Nicatdır.

Tarixi taleyimizin 1918-1920- ci illəri, Azərbaycan Cümhuriyyətinin gərgin və faciəli ictimai-siyasi hadisələrlə zəngin taleyüklü bir dövrü yazıçı-filosof Əlisa Nicatın «Mələklər və İblislər» tarixi-siyasi romanında öz təcəssümünü tapmışdır. Əsər ilk dəfə «Şanlı cümhuriyyət» adı ilə «Hürriyyət» qəzetində dərc olunmuşdur. Bu romana qədər tarixi roman bəlli bir yaradıcılıq yolu keçmiş və «Qızılbaşlar», «Gəncəli müdrik» kimi romanların müəllifi Əlisa Nicat bu əsərdə də öz yaradıcılıq məramına sadiq qalaraq tariximizin uzun illər qaranlıq qalan səhifələrini yenidən araşdırıb aşkarlamışdır.

«Mələklər və İblislər» informasiyalarla zəngin olan və əsasən, analitik üslubda qələmə alınmış romandır. «Nəsrimizdə yeni hadisə» adlı ön sözündə prof. Tofiq Hüseynoğlu əsərin ədəbi-bədii mündəricəsini belə müəyyənləşdirir: «Əlisa Nicatın romanı əks etdirdiyi hadisələrin əhatəliliyi, dövrün mürəkkəbliyini kifayət qədər

mürəkkəb bir formada verə bilmək baxımından və indiyə qədər bir sıra məsələlərə ikili münasibətlərə obyektiv bir aydınlıq gətirə bildiyinə görə xüsusi əhəmiyyət kəsb edir» (2, 3).

Xalqımızın milli istiqlal mücadiləsi tarixinin azadlıq axtarışları ilə səciyyələnən ağır və faciəli dövrünü – 1918-1920-ci illəri əks etdirən bir sıra əsərlər qələmə alınsa da, bu yanaşmalar birtərəfli, bir çox məqamlarda təhrif olunmuş xarakter daşımışdır.

Əlisa Nicat romana dair müəllif qeydində yazır: «Bu roman uzun illər yaşanıb qısa müddətə yazılmışdır» (2, 6). Bu, müəllifin milli qürur və vətəndaşlıq duyğusu ilə bağlıdır ki, həmin tendensiya özünü yazıçının digər tarixi romanlarında da göstərmişdir.

Romanın uzun illər meydana çıxmamasının digər bir səbəbi isə təsvir olunan dövrün öyrənilməməsi, yanlış və birtərəfli şəkildə təqdim olunmasıdır.

Əlisa Nicatın «Mələklər və İblislər» romanında 1918-1920-ci illərin tarixi-siyasi hadisələri təsvir olunmuşdur. Lakin müəllif təsvir etdiyi hadisələri yalnız bu dövrlə məhdudlaşdırmamışdır; belə ki, romanda Cümhuriyyətin qurulmasından əvvəl və onun süqutundan sonrakı dövrün hadisələrinə də müəyyən qədər diqqət yetirmişdir.

Əsərdə 1918-1920-ci illər Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması və bu yoldakı çətinliklər, onun möhkəmləndirilməsi və qorunması uğrunda döyüşlər, sürgünlər və repressiyalar, qətllər, həmçinin Cənubi Azərbaycanda baş qaldıran milli-azadlıq meylləri və.s. kimi mürəkkəb hadisələr öz əksini tapmışdır.

Eləcə də, roman mənfi və müsbət tərəfləri əks etdirən «Mələklər və İblislərin»in münaqişəsi kimi və professor Tofiq Hüseynoğlunun söylədiyi kimi, «üç zaman müstəvisində» qeydə alınır. Bu barədə müəllif öz qeydində yazır: «Roman müəllifin bütün qəlb ağrılarının ifadəsi olmaqla, həm də yeni doğulan və doğulacaq gənclərin içindən hər iki Azərbaycanın bir millət kimi gələcək oyanışına və adının ləyaqətlə çəkilməsinə səbəb olacaq intibahına olan ümidlərini əks etdirir» (2, 6).

«Mələklər və İblislər»in Azərbaycan Xalq Cümhuriyyətinə gedən yoldakı mübarizələrdə və onun təsdiqində, XI Qızıl ordunun Azərbaycan sərhədlərini qıraraq vətən torpağını işğal etdiyi və nəhayət, üçüncü – gələcək zamana, milli istiqlalın yenidən göyərməsinə ümidi ifadə edən bütün sətirləri bu inamla müşayiət olunur.

Roman, həmçinin mövcud dövrün ədəbi-tarixi şəxsiyyətlərinin bədii portretinin yaradılması və həmin mübarizədə onların mənfi və müsbət yerinin müəyyənləşdirilməsi baxımından da maraq doğurur.

Əlisa Nicatın «Mələklər və iblislər» romanının ön sözündə professor Tofiq Hüseynoğlu əsər haqqında mülahizələrini belə ümumiləşdirmişdir: «1918-1920-ci illər müstəqil, azad Azərbaycan Demokratik Cümhuriyyətinin yaradılması, onun möhkəmləndirilməsi və qorunması uğrunda döyüşlər, sürgün və repressiyaların ilk dalğalarının başlanması, Cənubi Azərbaycanın taleyi və s. kimi olduqca çox və mürəkkəb problemlər yazıçı tərəfindən «Mələklər və İblislər»in münaqişəsi kimi qələmə alınır və bütün bunların hamısı üç zamanın müstəvisində istedadlı bir müəllif mövqeyindən əks etdirilib qiymətləndirilir» (2, 4).

Əlisa Nicatın «Mələklər və İblislər» romanında Nəriman Nərimanov, Məhəmməd Əmin Rəsulzadə, Fətəli xan Xoyski, Cəfər Cabbarlı, Üzeyir Hacıbəyov, Abdulla Şaiq, Şeyx Məhəmməd Xiyabani, Ənvər Paşa, Yusif Ziya, İosif Vissarionoviç Stalin, Stepan Şaumyan, Pankratov və digər tarixi şəxsiyyətlərin surətləri yaradılmışdır.

Müəllif yaratdığı tarixi qəhrəmanların hər birinin surətini bütün dolğunluğu ilə əks etdirə bilməmişdir. Ancaq tarixi hadisələrin fonunda adı çəkilən qəhrəmanların hər birinin təqdimi dövrün ictimai-siyasi mənzərəsinin canlandırılmasına imkan vermişdir.

Xüsusən, bu obrazlar qalereyasında üzərində dayanılan və baş obraz kimi nəzərə çarpan, Azərbaycan Cümhuriyyəti tarixindəki mövqeyi uzun müddət müzakirə və mübahisə obyektinə çevrilən Nəriman Nərimanov surəti diqqəti cəlb edir. Müəllif bu böyük şəxsiyyətin varlığının və tarixi-siyasi simasının müəyyənləşdirilməsində tarix elmləri doktoru Musa Qasımovun və tədqiqatçı Adıgözəl Məmmədovun araşdırmalarından bəhrələndiyini qeyd edir.

Romanda Stepan Şaumyanın başçılığı ilə daşnakların rus bolşevikləri ilə əməkdaşlığı, Azərbaycan türklərinə qarşı apardıqları təxribat, qətliam və digər fitnəkarlıqlar canlı şəkildə təsvir olunmuşdur. Yazıçı Stepan Şaumyanın başçılığı ilə qurulan oyuncaq Bakı Kommunasının hakimiyyəti dövründə Azərbaycanın türk-müsəlman əhalisinin başına gətirilən faciələrə diqqəti çəkmiş, erməni daşnaklarının daxili-mənəvi simasını açıb göstərməyə çalışmışdır. Romanda xüsusilə dünya erməni təşkilatlarının və onların nüfuzlu şəxslərinin Stepan Şaumyanın dəvəti ilə Bakıda görüşünün təşkil olunduğu məclis özünəməxsusluğu ilə maraq doğurur. Şaumyan onlara müraciətlə «...yaşadığımız, yəni oturduğumuz və əslində siyasi hakimiyyət tamamilə əlimizdə olan bu ölkə – elə bir ölkə ki, altı da, üstü də qızıldır, hazırki zamanda sakinləri bir yığın başı pozuq kütlədir və bu kütlənin başında da heç bir güclü və yetkin nə bir siyasi lider, nə bir təşkilat var. Eyni dərəcədə arxalarında da hər hansı bir hərbi qüvvə və dövlət yoxdur» (2, 19). Burada yazıçı erməni lobbisini təşkil edən, Daşnaksütun partiyasını və ermənilərin gizli terror təşkilatlarını maliyyələşdirən bu şəxslərin hər birinin xarakter xüsusiyyətlərini səciyyələndirməyə çalışmışdır.

Müəllif əsərdə «düşmən doğmalar və doğma düşmənlər»in ağalıq etdiyi şəhərdə baş verən hadisələrin içindən keçib Azərbaycan Cümhuriyyətinin gələcək varlığına ürəkdən inanan və bu yolda öz qələmi ilə çarpışan Azərbaycanın dəyərli övladı yazıçı – dramaturq Cəfər Cabbarlının parlaq obrazını yaratmışdır.

Xüsusilə, görkəmli dramaturqun hələ gənc ikən Bakının küçələrində törədilən qanlı qırğın hadisələrinə biganə qalmayaraq yazdığı «Bakı müharibəsi» əsəri və onun səhnədəki uğuru, daha sonra ÇEKA-nın diqqətindən yayınmaq üçün həmin əsəri məhv etməsi kimi məqamlar maraqlı və təsirli sətirlərindəndir.

Burada, Cabbarlının azadlıq barədəki düşüncələrinə də xüsusi yer ayrılmışdır: «Bolşevik adlanan bu yırtıcılar gəldilər, azad, müstəqil və xoşbəxt bir xalqı təzədən kölə etdilər. Ancaq kölənin həyatını köləlikdən başqa heç bir təhlükə gözləmir, amma özləri ilə «azadlıq» gətirən bu dəri gödəkçəli yadellilər, bu ermənilər, yəhudilər, ruslar sürü kimi adamları qabaqlarına qatıb aparırlar. Başlarına nə gəldiyini heç kim bilmir» (2, 78). Bəli! Bu, həqiqətən həmin dövrün yaşanan bir gerçəyi idi.Və belə bir aqibət Cümhuriyyət eşqi ilə yanan digər ürəklər kimi onu da susdura bilərdi. «Çünki bu rejimə qarşı qiyam yalnız ölümə getmək deməkdir. Ölkədə yüz minlərlə ac rus ordusu vardı. Hamısı da Azərbaycan kəndlilərinin hesabına yaşayırdı. Pankrotov da bir yandan əjdaha kimi ağzını açıb gecə-gündüz adamları diri-diri udurdu. Şəhər tamamilə Bakı Partiya Komitəsi, onun sədri Sarkisin və onun əlaltılarının əlində idi. Nərimanov ağzını açıb bir söz deyən kimi «sağa meyllilikdə» damğalanırdı. Hələ ÇEKA-nı demirəm. Bütün türklər potensial düşmən sayılır» (2, 164). Lakin bütün bunlara baxmayaraq mövcud dövr həqiqətlərini yaşayan vətən oğulları azadlıq yolun-

dan bir an belə dönmədilər.

Əlisa Nicat əsərdə Azərbaycan Cümhuriyyətinin yaradıcısı Məhəmməd Əmin Rəsulzadənin obrazına da xüsusi yer ayırmışdır. Onun Azərbaycan Cümhuriyyəti parlamentinin açılışında söylədiyi nitq olduqca ibrətamizdir: «Azərbaycan bir atəş mənbəyidir. Vətənimiz hər zaman kəndi sinəsində bir atəşi müqəddəs bəsləmişdi. Bu atəş əski zamanlardan bəri həqiqətpərəstlərə rəhbər, şəkil, ümid və inam təşkil eyləmişdir.O atəş ki, bu gün də sərvət və zaman səbəbi və baisi-təməddüdündür. Qəvi bir atəş Azərbaycan övladının sinələrinə düşən milyonlar ilə bürkü yağan bu atəş əbədən sönməz, bir müşkül təşkil edib də hürriyyət və istiqlalə doğru getdiyiniz manecəli yolları işıqlandırsın» (2, 95). Bu, böyük öndərin gələcəyə olan sonsuz inamı idi ki, özünü doğrultdu. Romanda müəllif Rəsulzadə-Stalin münasibətlərinə də xüsusi yer ayırmışdır.

Yazıçı romanda Cümhuriyyət yaddaşımızla bağlı iki tarixi hadisəyə diqqət çəkir. Müxtəlif mərhələlərində təhrif olunmuş yanaşmalarla səciyyələnən Samur çayı və Yalama dəmiryolu stansiyası uğrunda gedən döyüşləri tariximizin qanla yazılan səhifəsi kimi dəyərləndirir. «Samur çayı, Samur çayı... Sən yəqin ki, o günü unutmamısan. Çünki o gün sənin suların şəffaf deyil, qırmızı idi. Bu batan günəşin qürub şüalarından deyil, general mayor İbrahim bəy Usubbəyov və onun 200 nəfərlik alayının əsgərlərinin axan qanı ilə qızarmışdı. O gün bu hadisəni heç kim görmədi, bu hadisə barədə dünyanın heç yerində heç kim heç nə bilmədi və yazmadı. Çünki XI Qırmızı ordunun generalları bu barədə danışanları və bilənləri bir-bir yox edib, sonralar hadisələri özləri istədikləri şəkildə təsvir etdilər» (2, 116-117). 200 minlik rus ordusuna qarşı 200 nəfərlik heyətlə vuruşarkən qəlblərindəki Cümhuriyyət eşqi ilə divləşən Azərbaycan oğullarının körpünün müdafiəsindəki dəyanəti son dərəcə həzin bir dillə nəql edilir. Eyni hadisənin təsvirindəki analoji mövqe Qurban Səidin «Əli və Nino» əsərində öz ifadəsini tapmışdır. Milli vətən tarixində özünəməxsus yeri olan Gəncə hadisəsi kütləvi qəhrəmanlıq nümunəsi kimi yaddaşlara həkk olundu. Azərbaycan istiqlalını qəlblərində bir bayraq kimi daşıyan bu qəhrəman övladların şəhadəti Azərbaycan Cümhuriyyətinin gələcək yüksəlişinin təminatı oldu.

Əlisa Nicatın «Mələklər və İblislər» romanı pessimist əhvali-ruhiyyədə qələmə alınsa da, bu pessimizmin arxasında xalqın azadlıq mübarizəsi bədii ifadəsini tapmışdır.

Romanın müasir nəsrimizin dəyərli nümunələrindən biri kimi ədəbi-nəzəri fikrin diqqət mərkəzində olacağı şübhə doğurmur.

Təhlillərdən aydın göründüyü kimi, romanda Cümhuriyyət həyatının bədii əksini tapması təsadüfi səciyyə daşımır. Yazıçı bir tərəfdən bu günün problemlərini əks etdirmək üçün tarixin qoynuna sığınmış, digər tərəfdən tarixin problemlərinə aydınlıq gətirməyə, onun bir sıra qaranlıq məqamlarını aşkarlamağa çalışmışdır.O, ağ və qara kölgələrin izinə düşərək Cümhuriyyət dövrü ilə bağlı hadisələri aydınlatmağa səy göstərir. Üzeyir bəy, Nuru Paşa, Nəriman Nərimanov, Mir Cəfər Bağırov və b. onun bəyaz müstəvidə, Andranik, Şaumyan, Mikoyan, Orconikidze, Mirzoyan və başqaları qara platformada dayanan qəhrəmanları idi.

Romanda təsvir olunan hadisələrin bir sıra məqamlarda publisistik səpkidə təqdimi də diqqəti çəkən məqamlardandır. Düzdür, bu aspekt müəyyən mənada əsərin bədii səviyyəsinə xələl gətirmişdir. Lakin tarixi dövrün bu səpkidə canlandırılması romanın sənədliliyini qabarıq əks etdirən, oxucunu hadisə və əhvalatların doğrulu-

ğuna inandıran məqam kimi gerçəkləşmişdir.


### ƏDƏBİYYAT

1.Axundlu Yavuz. Azərbaycan tarixi romanı: mərhələlər, problemlər. Bakı: Adiloğlu, 2005, 596 s.
2.Nicat Əlisa. Mələklər və İblislər. Bakı: Adiloğlu, 2007, 306 s.


## ПО СЛЕДАМ ТЕНЕЙ – РЕСПУБЛИКА АЗЕРБАЙДЖАН


### С.М.МАМЕДОВА


### РЕЗЮМЕ


Статья «По следам теней - республика Азербайджан» посвящена роману «Ангелы и демоны» Алисы Ниджат, в котором освещаются историко-политические события 1918 - 1920-х годов.

В статье исследуется отношение к истории республики. Особое внимание уделяется созданию художественных образов литературно- исторических личностей того времени. В этом отношение художественный образ таких исторических личностей, как Нариман Нариманов, Фатали Хойски, Джафар Джабарлы, Анвер Паша, Степан Шаумян, Панкратов – играет особо важную роль в создании общественно – политического периода.

В статье были использованы монографические исследования посвященные этой теме.


## ON THE TRACES OF SHADOWS – THE AZERBAIJAN REPUBLIC


### S.M.MAMMADLİ


### SUMMARY


The article "On the traces of shadows - the Azerbaijan Republic" is devoted to the novel "Angels and Devils" by Alisa Nijat that reflects historical and political events of 1918-1920 years.

The article studies the history of the Republic and focuses on historical and literary figures of that time. The historical figures such as Nariman Narimanov, Fatali Khoyski, Anvar Pasha, Stepan Shaumyan, Pankratov were the ones to shape the socio-political period in that respect.

The article is based on the monographic researches on the presented topic.